Festivalda Azərbaycan "Təhsil" Respublika İdman Mərkəzinin 23 nəfərdən ibarət nümayəndə heyəti ilə təmsil olunub.

Festivalın açılış mərasimində Türkmənistanın idman naziri və festivalın Təşkilat Komitəsinin sədri, fiqurlu konkisürmə üzrə dəfələrlə Avropa və dünya çempionu, Rusiya Federasiyası Dövlət Dumasının deputatı İrina Rodnina çıxış edərək idmançıları festival münasibətilə təbrik ediblər.

Tədbir çərçivəsində mini futbol, çimərlik voleybolu, stolüstü tennis, şahmat və basketbol idman növləri üzrə yarışlar keçirilib. Azərbaycan nümayəndə heyətində təmsil olunan Mətin Həsənzadə stolüstü tennis üzrə fərdi yarışda 3-cü yeri tutub. Tanınmış şahmat ustalarının qatıldığı yarışda isə Azərbaycan komandası 5-ci yerə yüksələ bilib.